# Özbəkistan teatrında Azərbaycanın “Dostluq səhnələri”

**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Mukimi adına Özbəkistan Dövlət Akademik Musiqili Teatrında Beynəlxalq Teatr Günü münasibətilə Azərbaycan teatr sənətinə həsr olunmuş “Dostluq səhnələri” adlı təqdimat keçirilib.**



Teatr direktorunun müavini Xayrulla İnağamov bildirib ki, Özbəkistan teatrları zaman-zaman klassik Azərbaycan musiqili komediyalarına müraciət edib, həmişə də uğur qazanıb. O, Azərbaycan Dövlət Musiqili Komediya Teatrı və ölkəmizin digər teatrları ilə geniş əlaqələrinin olduğunu və iki il əvvəl Bakıda Məcid Şamxalovun “Qaynana” komediyası ilə çıxış etdiklərini söyləyib.

Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli isə bildirib ki, 152 yaşlı Azərbaycan teatrı bütün Şərqdə, o cümlədən Özbəkistanda teatrın yaranması və inkişafına böyük töhfə verib. Bu yaxınlarda Mədəniyyət Mərkəzində gənclərdən ibarət truppa yaradılıb və azərbaycanlı müəlliflərin əsərləri səhnələşdirilir. Bununla yanaşı, klassik və müasir azərbaycanlı müəlliflərin pyeslərinin də özbək dilinə tərcümə edilməsinə də start verilib.

Sonra teatrın aktyorları Üzeyir Hacıbəylinin “Arşın mal alan”, Məcid Şamxalovun “Qaynana”, AMM-nin teatr truppası isə “O olmasın bu olsun” musiqili komediyalarından səhnələr göstəriblər. Mədəniyyət Mərkəzinin “Azərbaycan” rəqs ansamblı səhnəciklərdə çıxış edib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

Xalq qəzeti .- 2025.- 2 aprel (№ 62).- S.14.